Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Dövlət Universiteti

# “Sosial iş”

## ixtisası üzrə doktoranturaya qəbul proqramı

Bakı-2022

**Tərtib edib:** BDU–nun Sosial iş kafedrasının
professoru Qızılgül Abbasova

**Elmi redaktor:** BDU-nun Sosial iş kafedrasının
müdiri, dosent Üzeyir Şəfiyev

**Rəyçilər:** BDU-nun Sosial iş kafedrasının
dosenti Rəna Məmmədova

AMEA-nın Fəlsəfə və Sosiologiya
institunun baş elmi işçisi,
dos. Rəşad Əsgərov

## Fənnin məzmunu

**Mövzu 1.**Sosial iş fənninin məqsəd və vəzifələri, sosial iş üzrə mütəxəssis hazırlığında onun əhəmiyyəti.

İctimai praktikada sosial işin nəzəriyyəsinin yeri, onun əsas məqsədləri. Sosial işin nəzəriyyəsinin predmet sahəsi. Sosial işçi hazırlığında sosial işin nəzəriyyəsinin yeri və rolu.

**Mövzu 2.** Sosial iş elm sahəsi kimi

Sosial iş elm sahəsi kimi: problem sahəsi, potensial və inkişaf perspektivləri. Sosial işin nəzəriyyəsinin tətbiqi və fundamental xarakteri. Sosial işin nəzəri problemləri. Sosial işin nəzəriyyəsinin obyekti və predmeti. Sosial yardımın yeni növü olan sosial işin mahiyyəti. Sosial işə əsas yanaşmalar (paradiqmalar). Sosial iş sisteminin vəzifələri və hədəfləri: tarix və müasirlik. Sosial yardımın mahiyyəti. Sosial iş sisteminə təsir edən xarici sahənin amilləri.

**Mövzu 3.** Praktik fəaliyyət sahəsi kimi sosial işin mahiyyəti, onun subyekti, obyekti və predmeti

Vətəndaş cəmiyyətinin atributu kimi sosial dəstək institutu.Vətəndaşın sosial, iqtisadi və mədəni hüquqları. Sosial işikitərəfli qarşılıqlı təsirin forması

kimi. Sosial işin subyekti və obyekti. Sosial işin subyektin və obyektinin qarşılıqlı əlaqə və qarşılıqlı asılılığı. Sosial işdə əlaqələr. Müştərinin sosial vəziyyəti sosial işin predmeti kimi. Sosial iş sisteminin fəaliyyətinin nizama salınmasında dövlətin rolu. Dövlət sistemində sosial işin üstünlükləri və çatışmazlıqları.

**Mövzu 4.** Sosial işin tarixi

Sosial işin tarixi inkişaf mərhələləri, dünyada və Azərbaycanda sosial işin institutlaşma dövrü, sosial iş sahəsi üzrə beynəlxalq təcrübə, filantropiya, xeyriyəçilik, sosial iş peşə sahəsi kimi.

**Mövzu 5** Sosial siyasət və sosial iş: qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq

Sosial hərəkət və onun növləri. Əxlaqın növləri: borc əxlaqı, azad əqidə əxlaqı, məsuliyyət əxlaqı. Sosial siyasətin formalaşmasına əxlaqın təsiri. Sosial siyasətdə humanizm və ədalət prinsipləri, onların tarixi transformasiyası. Sosial işin makrosəviyyəsi kimi sosial siyasət. Sosial siyasət sosial iş təcrübəsinin normativ və idarəçilik bazası kimi. Sosial siyasətin formalaşmasına sosial iş təcrübəsinin təsiri. Sosial siyasətin və sosial işin inkişafına təsir edən ideoloji amillər. Sosial siyasət və sosial dövlət.

**Mövzu 6.** Sosial işin kateqoriyaları, qanunauyğunluqları və prinsipləri

"Sosial iş kateqoriyası" anlayışı. Sosial iş kateqoriyalarının növləri: ümumi (sosial münasibətlər, sosial fəaliyyət, sosiallaşma, şəxsiyyət və s.); fənlərarası (sosial reabilitasiya, ailə münaqişələri, psixososial iş və s.); spesifik (sosial işçi, sosial xidmət, ünvanlı sosial yardım və s.). Sosial təcrübənin müxtəlif sferalarında fəaliyyətin məzmunu üzrə sosial iş kateqoriyalarının növləri: təhsil sistemi, əmək kollektivləri, məktəb, ordu, penitensiar sistem və s. "Qanunauyğunluq" anlayışı, "qarşılıqlı əlaqə" və "qarşılıqlı təsir" anlayışlarından onun fərqi. Sosial işin qanunauyğunluqları kimi hadisə, münasibətlər və əlaqələr istiqamətinin inteqral xarakteristikaları. Sosial iş sistemi fəaliyyətinin qanunauyğunluqlarının obyektiv xarakteri. Sosial işi sisteminin fəaliyyətinə təsir edən xarici mühit amilləri. Sosial işin əsas prinsipləri: ümumfəlsəfi, sosial-siyasi, təşkilati, psixoloji-pedaqoji, spesifik.

**Mövzu 7.** Sosial işin səviyyələri və sosial işçinin vəzifələri

Sosial işin səviyyələri: fərdi, qrup, ümum cəmiyyət. Sosial işin səviyyələrinin subyektləri və obyektləri. Hər səviyyədə sosial işin subyektlərinin funksiyaları. Müştərilərin problemlərinin həllinə

yanaşmalar: tərbiyəvi, fasilitativ, advokativ. Sosial işin sistemində işləyən mütəxəssislərin, onların fəaliyyətinin istiqamətindən asılı olaraq funksional vəzifələri: sosial müvəkkil, məsləhətçi, broker, sosial pedaqoq, sosial işçi, sosial iş üzrə mütəxəssis, təşkilatçı, kiçik menecer, tədqiqatçı, və s. Sosial işçinin əsas funksiyaları: diaqnostik, proqnoz, profilaktik, hüquq müdafiəsi, sosial-pedaqoji, sosial-psixoloji, kommunikativ, reklam-təbliğat, sosial-məişət, əxlaqlı-humanist, təşkilati.

**Mövzu 8.**Sosial işinformaları və metodları

Sosial iş metodlarının təsnifatı: istiqamətlər və formalar (təşkilatlar, sosial-psixoloji, sosial-pedaqoji, sosial-tibbi, sosial-iqtisadi və s.) üzrə; səviyyələr və obyektlər (fərdilər, qruplar, sosial səviyyədə) üzrə; subyektlər (ayrı-ayrı mütəxəssislər tərəfindən, sosial xidmətin kollektivi tərəfindən, sosial işin müəssisəsi tərəfindən tətbiq edilən) üzrə. Dövlət sosial xidmətində sosial iş formaları və metodlarından istifadədəyə differensial yanaşma. Əhaliyə sosial xidmət dövlət sisteminin əsas istiqamətləri və formaları. Qeyri-hökümət sektorunda əhaliyə sosial yardımın əsas istiqamətləri və təşkili formaları. Fərdlərlə, qruplarla, icmalarla sosial iş metodları.

**Mövzu 9.**Sosial işin texnologiyaları

Fərdlərlə sosial işin texnologiyası: real şəraitin qiymətləndirilməsi, benefisiarın hansı nəticələr gözləməsinə aydınlıq gətirilməsi, sosial hərəkət (əməl). Əhalinin müxtəlif təbəqələri ilə, icmalarla sosial işin texnologiyası.

**Mövzu 10.** Sosial gerçəkliyin modelləşdirilməsi, layihələşdirilməsi və proqnozlaşdırılması

Sosial layihələşdirmə və proqnozlaşdırma elmi idrak metodu kimi. Sosial işdə layihələşdirmə metodları, texnologiyaları, funksiyaları.

**İkinci hissə**

**Mövzu 11.** Sosial işin əsas nəzəriyyələri və modelləri

Sosial işin nəzəriyyələrinin və modellərinin əlaqəsi. Sosial işin sosioloji modelləri: həyat,sosial-radikal, marksizm və s. modelləri. Sosial işin psixodinamik, ekzistensional, vitalist, humanist, və s.psixoloji modelləri. Sosial işin kompleks xarakterli modelləri: rol, sosial-pedaqoji, koqnitiv və s. Müştəri qrupundan asılı olaraq sosial işin müxtəlif modellərinin tətbiqinin spesifikası.

**Mövzu 12**. Sosial işin nəzəriyyəsi və təcrübəsində inteqrativlik, komplekslik, sistemlik anlayışları.

Inteqrativliyin əsas xarakteristikaları. Kompleksli analiz prinsipləri. Tədqiqat obyektinin öyrənilməsində inteqrativliyin və kompleksliliyin əlaqəsi. İnteqrativlik və komplekslik sosial problemlərin həllinin vacib şərti kimi. Sistem yanaşmanın mahiyyəti. Sistemlər nəzəriyyəsi sosial işin metodologiyası kimi. Sosial iş sistem kimi. Azərbaycanda əhalinin sosial xidmət sistemi. Sosial işin nəzəriyyəsinə sistem yanaşma. Sosial işi nəzəriyyəsində sistem analizinin müxtəlif növlərindən istifadə: genetik, struktur, komponentlilik, proqnozvermə, daxili və xarici fəaliyyət. Sosial iş təcrübəsində sistem analizinin növlərinin tətbiqi. Sosial işdə idarəçilik münasibətlərinin növləri: subordinasiya, koordinasiya, korrelyasiya. Sosial iş sisteminin fəaliyyət və inkişaf prinsipləri.

**Mövzu 13.** Sosial elmlər strukturunda sosial iş

Sosial işin nəzəri əsaslandırılmasının istiqamətləri. Sosial işin təcrübəsivə nəzəriyyənin qarşılıqlı asılılığı. Təcrübənin təhlilisosial işin nəzəriyyəsinin inkişafının zəruri komponenti kimi. Elmi fənlərin strukturu. Sosial işin nəzəriyyəsinin elmə aid struktur əlamətləri: spesifik predmet və tədqiqatın obyekti, tədqiqat obyektinə məxsus fəaliyyətin və inkişafın qanunauyğunluqları, anlayışlar, kateqoriyalar, prinsiplər və fəaliyyət metodları. Sosial işin

nəzəriyyəsinin inteqrativ xarakteri. Sosial işin nəzəriyyəsi və təcrübəsinin digər fənlərləqarşılıqlı əlaqəsi.

**Mövzu 14.** Elm sahəsi kimi sosial işin fəlsəfi əsasları

Fenomenoloji və ekzistensional fəlsəfə insan talelərinin müxtəlifliyinin və fərdlərin hüquq bərabərliyinin dərk edilməsi üçün əsas kimi. Fəlsəfi kateqoriyalar (insan, mədəniyyət, seçim azadlığı, vaxt və s.) və sosial işin nəzəriyyəsinin inkişafında onların rolu. Sosial işin sosial-fəlsəfi problemləri: sosial mühitin şəxsiyyətə təsiri, insanın özü və başqaları qarşısında məsuliyyətin dərəcəsi və ölçüsü, xeyir və şərin dərk olunma məsələləri. İnsanın həyat yolunun yaş mərhələləri. Insan özünü təşkil edən sistem kimi.

**Mövzu 15.** Psixologiyanın və sosial işin qarşılıqlı əlaqəsi

Sosial işçilərin psixoloji bacarığı. Sosial işdə psixologiyadan istifadənin nəzəri əsasları. Klassik və müasir psixoloji konsepsiyalarda və yanaşmalarda insanın psixoloji imkanları haqqında təsəvvürlər: psixoanalitik, psixodinamik, humanist, ekzistensional yanaşmalar, Mən-psixologiyası, transakt təhlil, heştalt-psixologiya, böhran modeli və.s.

**Mövzu 16.** Sosiologiya və sosial iş: ümumi xarakteristikası, sosioloji biliyin sahələri ilə sosial işin əlaqəsi.

Sosial işin təşkilində sosiologiyanın rolu. Sosial işin nəzəriyyəsinin inkişafı üçün əsas kimi sosial stratifikasiya haqqında sosioloji təsəvvürlər. Sosial təbəqə və qrupların arasında sosial gəlirlərin bölgüsü. Sosial bərabərliyin / bərabərsizliyin sosioloji dərki. İnsanın sosial sağlamlığı anlayışı, sosial işin nəzəriyyəsi və təcrübəsində konsepsiyadan istifadə. Sosial resurslar və əhalinin sosial iş metodları ilə onların təmin olunması mümkünlüyü. Sosial işin nəzəriyyəsi və təcrübəsinin sosioloji biliyin müxtəlif sahələri ilə əlaqəsi: ailənin sosiologiyası, əməyin sosiologiyası, deviant davranış sosiologiyası, sağlamlığın sosiologiyası, hüquqi sosiologiyası, mənəvi həyatın sosiologiyası, mədəniyyətin sosiologiyası və s.

**Mövzu 17.** Sosial problemlər sosiologiyası və sosial iş

Sosial problemlər haqqında təsəvvürlərin inkişafı. “Sosial problem” anlayışının tərifi. Sosial problemlərin əlamətləri. Sosial problemlərin strukturu. Sosial problemlərin tipologiyası. Sosial problemlərin əsas konsepsiyaları: sosial patologiya, deviant davranış, simvolik interaksionizm,

fenomenoloji sosiologiya konsepsiyası, funksionalizm, sosial münaqişə, marksizm. Sosial işin nəzəriyyəsində sosial problemlər haqqında nəzəri təsəvvürlərin inkişafı. sosial problemlərin həllindəsosial iş metodlarınınimkanları və perspektivləri.

**Mövzu 18.** Yoxsulluq müasir dövrün əsas problemi kimi

Elm tarixində yoxsulluq problemi haqqında təsəvvürlərin inkişafı. Yoxsulluq submədəniyyətinin əsas əlamətləri və tipik xüsusiyyətləri. Yoxsulluq haqqında müasir təsəvvürlər. Sosial hadisə kimi yoxsulluğun yaranmasına və təkrar istehsalına təsir edən amillər. Yoxsulluq submədəniyyətinin təhlilində istifadə edilən əsas anlayışlar və onların məzmunu (obraz, üslub, səviyyə və kasıbların yaşayış səviyyəsi). Yoxsulluğun qiymətləndirilməsi metodları: statistik, normativ, stratifikasiya, antropolojı, evristik. Yoxsulluqla mübarizə və onun profilaktikası ilə bağlı sosial siyasət. Azərbaycanda yoxsulluq probleminin xüsusiyyətləri. Azərbaycanda əhalinin yoxsul təbəqələrinə aid sosial siyasət. Əhalinin yoxsul təbəqələri ilə sosial iş.

**Üçüncü hissə**

**Mövzu 19.** Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial işin xüsusiyyətləri

İnsanların həyat fəaliyyətinin müxtəlif sahələrinə sosial işin uyğunlaşdırılması ehtiyacı. Sosial işin "texnologiyası" anlayışı. Təhsil sahəsində sosial işin xüsusiyyətləri. Sosial işin hədəflərin və müasir təhsil məsələlərinin inteqrasiyası. Uşaq bağçalarında, məktəblərdə, xüsusi təhsil müəssisələrində, ali məktəblərdə sosial işin spesifikası. Səhiyyə sistemində sosial iş. Tibbi-sosial işin və onun istiqamətlərinin mahiyyəti. Hospislərdə, narkologiyada, onkologiyada, ailənin planlaşdırılmasında, yaşlılarlasosial işin spesifikası. Məşğulluq sahəsində sosial işin spesifikası. Məşğulluq xidmətləri sistemində sosial-psixoloji iş. Penitensiar sistemində sosial işin xüsusiyyətləri: hədəflər, istiqamətlər, fəaliyyət metodlarıvə texnologiyalarının məzmunu.

**Mövzu 20.** Idarəetmə sosiologiyası və sosial iş

Sosial idarəetmə anlayışı və onun funksiyaları. Sosial işin idarəedilməsi idarə etmənin növü kimi. Sosial işdə idarə etmə: anlayış, obyekt, predmet, əsas problemlər qrupları. Müasir sosial işin ən əhəmiyyətli idarəçilik tendensiyaları. Sosial idarəetmənin yeni konsepsiyaları və sosial reallığın müxtəlif səviyyələrində sosial işin təşkilinə onların təsiri.

**Mövzu 21.** Sosial işin səmərəliyi problemləri

Sosial xidmətlərinyeni ideologiyası və təcrübəsi: sosial siyasətin liberallaşdırması kontekstində səmərəliyi qiymətləndirilməsi. Sosial xidmətlərin keyfiyyətinin qiymətləndirilmə funksiyaları. Keyfiyyət, məhsuldarlıq və səmərəlilik anlayışları. Qiymətləndirilmənin növləri. Sosial işin səmərəliyinin meyarları. Əhalinin sosial xidmətinin keyfiyyətin təminatı. Qiymətləndirmə tədqiqatlarının keçirilməsi. Xidmətlərin qiymətləndirilməsinə istehlakçıların cəlb edilməsi. Sosial müdafiə müəssisələrində qiymətləndirilmə təcrübəsi. Qiymətləndirilməyə yanaşmaların inkişafı. Keyfiyyətin və səmərəliliyin qiymətləndirilməsi yolları. Sosial idarəetmənin səmərəliliyinin artırılması yolları.

**Mövzu 22.** Sosial işçilərin hazırlığının təkmilləşdirilməsi sosial işin təsirliliyin və keyfiyyətinin artması şərti kimi

Gələcək sosial işçinin peşə seçimi. Seçmənin meyarları: empatiya, mərhəmət, humanist dünyagörüşüsü və s. Sosial işçilərin hazırlığının fənlərarası xarakteri. Sosial işçilərin peşə qrupları və onların fəaliyyətinin məzmunu. Sosial işçilərin bacarıqları peşəkar fəaliyyətinin əsaslarından biri kimi. Sosial xidmətlərin və sosial işçilərin peşəkar

bacarığı: anlayış, məzmun, reallaşdırma. Sosial işçiyə peşəkar tələblər. Peşənin nüfuzu və sosial işdə motivasiya problemləri.

**Mövzu 23.**Sosial iş nəzəriyyəsinin inkişaf istiqamətləri

Sosial iş və sosial inkişaf problemləri. Sosial iş və sosial təhlükəsizlik problemləri. Sosial iş və vətəndaş cəmiyyətinin formalaşması. Sosial dövlətin inkişafı kontekstində sosial iş. Müasir cəmiyyətin əsas problemləri və onların həllində sosial iş sisteminin iştirakı imkanları. Sosial işin nəzəriyyəsi və təcrübəsinin inkişafının mümkün istiqamətləri.

## Ədəbiyyat siyahısı


1. Sosial işin əsasları I-II hissə, Müntəxəbat, Bakı, 2006
2. Əhmədov.Y. Sosial işin nəzəriyyəsi və təcrübəsi. Bakı, 2013
3. Şəfiyev Ü. Azərbaycanda sosial iş və sosial siyasət. “Elm və təhsil”. Bakı, 2018
4. Şəfiyev Ü. Sosial iş. İzahlı terminlər lüğəti. “Elm və təhsil”. Bakı, 2018
5. Firsov M.V., Studenova E.Q. Sosial işin nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. 3-cü nəşr. “Elm və təhsil”. Bakı, 2018

6. Mehbalıyev S.S., İsgəndərov R.K. Məşğulluq. Bakı,”Çaşıoğlu”, 2001
7. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı, 2012
8. E.Ə.Qəhrəmanov, Y.P.Əhmədov. Sosial işin əsasları. Bakı, 2014
9. Онтология социальной работы в России. М.,1994
10. Григорьев С.И. Социология и социальная работа. Барнаул: 1991
11. Фирсов М.В. Методологические проблемы историографии социальной работы / Российский журнал социальной работы, 1/96, с.38-45
12. Ярская В.Н. Философия социальной работы : вопросы преподавания // Социальная работа. М.: 1992. Вып.5.